# Sən mənim ağ kitabım

Azadə Novruzova



Redaktor: *Natəvan Dəmirçioğlu,*
*filologiya üzrə fəlsəfə doktoru*

Texniki redaktor: *Esmira Rövşənova*

N76 **Novruzova Azadə**
**Sən mənim ağ kitabım.** Bakı, «Təhsil», 2018, 128 səh.

Azadə Novruzovanın «Sən mənim ağ kitabım» adlı şeirlər və esselər toplusunda vətən, sevgi, ictimai məzmunlu yazıları yer alıb.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

N $\frac{4702060202}{053}$ 2018

© Azadə Novruzova, 2018
© «Təhsil», 2018

# Müqtədir qadın:

## *Elmira xanım Süleymanova-80*

Respublikamızın ilk Ombudsmanı professor Elmira xanım Süleymanova Azərbaycan qadını üçün hər zaman örnək olacaq bir həyat hekayəsinin müəllifidir. Həyatındakı, çoxşaxəli fəaliyyətindəki örnək nümunələrdən bəhrələnmək üçün bu hekayəni dəfələrlə, sətirbəsətir oxumaq gərəkdir.

Ömürləri fəsillərə, təbiət hadisələrinə, rənglərə bənzədilib portretləri çəkilən obrazlardan fərqlidir bu ömrün cizgiləri. Sanki bütün bənzədilənlərin harmoniyasından doğulub bu ömür payı. Təbəssümünün əksini ilk baharın ılıq şüaları altında üzü günəşə sarı işım-işım işıldayan çiçəklərdə, sevgisini qızmar yay günəşinin ümmanın şəffaf sularında bərq vuran hər zərrəsində, arzusunun, istəyinin xoşbəxtliyini ləçək-ləçək açılan ağ qızılgüllərin ətri ilə süstlənəndə, kədərinin qəhrini günahsız körpələrin qətlindəki amansızlıq qarşısında üzündə donan gülüşünü yuyan göz yaşlarında, dözümünü zamanın sərt küləklərinə sinə gərən məğrur qayalarda, rəhmini-mərhəmətini ümidi yerdən-göydən üzülən Allah bəndələrinin üzünə hər zaman açıq olan qapısından sevinclə çıxan gülər üzlərdə, elin-günün se-

vincində hamıdan çox sevinən, kədərində hamıdan çox kədərlənən, qərarında qəti, haqq yolundan dönməz gördüm, tanıdım bu kəpənək zərifliyində incə, həssas qəlbə sahib, həyatın ağır yüklərinin altından çiyinlərini heç vaxt kənara çəkməyən ləyaqətli, məğrur, BU MÜQTƏDİR AZƏRBAYCAN QADININI!

Adının mənası ərəbcədən tərcümədə rəhbər anlamını daşıyan bu xanım nə vaxtsa yüksək vəzifədə, rəhbər olmağı heç düşünməsə də, tale onu o kürsüyə doğru addımbaaddım yolçu etmişdi. Bu yol Elmira xanımın portretində çox rəngarəng çalarlarla cızılıb. Bir kimyaçı kimi təbiət elminin nailiyyətləri ilə elmin zirvəsini fəth etmək, alimlik dərəcəsi alıb, yüksək elmi titullarla təltif olunmaq, digər tərəfdən cəmiyyət elminin ictimai xadim titulunda ləyaqətlə özünü doğrultmaq sübh şəfəqinin al qırmızı göz qamaşdıran bir çalarında əks olunub. Geniş və əhatəli dünyagörüşü, ensiklopedik biliyi onunla ünsiyyətdə insanın mənəvi rahatlıq və sakitlik tapmasına, özünə inam hissinin güclənməsinə səbəb olur. Bu xüsusiyyətlərin vəhdəti portretində təbiətin əsrarəngiz gözəlliklərinin təcəssümü sayılan yaz yağışından sonra mavi səmanın belinə incə bir kəmər kimi taxılan göyqurşağının füsunkar, heyranedici, əfsunedici çalarları ilə çəkilib. İki əsrdən ömür payı alan, günlərin, ayların, illərin cəm olunub, həyat-tale yolunun zirvəsinə ucalan VƏTƏNİMİZ, XALQIMIZ, DÖVLƏTİMİZ üçün gördüyü işlərin ölçüyə gəlməz dəyəri olan Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə ilk Müvəkkili (Ombudsman), kimya elmləri doktoru, professor, Nyu-York EA-nın üzvü, SSRİ-nin fəxri kimyaçısı, ixtiraçı, neft-kimya və incə üzvü sintez sahəsində tanınmış alim və ictimai xadim, «Şərəf» və «Şöhrət» ordenli Elmira Teymur qızı Süleymanova 1937-ci il, iyun ayının 17-də Bakı şəhərində ziyalı ailəsində anadan olub. Doğum gününüz mübarək olsun, çox hörmətli Ombudsmanımız Elmira xanım!

Nə yaxşı ki, Siz Azərbaycanlısınız! Bu yaxşı ilə, biz hər zaman fəxr edəcəyik! Nə yaxşı ki, Siz İlk Ombudsmansınız! Bu yaxşı ilə artıq dövlətimizin ali məqsədini qoruyan yeni təsisatın qurucusu olaraq, bir tarix yazmısınız! Və nə yaxşı ki, biz Sizinləyik! Bu yaxşı isə, bizim hər birimizin qürur duyub fəxarət hissi ilə öyünəcəyimiz ən böyük şansımızdır!

Ziyası, nuru qaranlıqlara işıq saçan, geriyə çevirib təkrar-təkrar oxuduğum həyat hekayəsinin hər sətirində müqtədir Azərbaycan qadını obrazı qarşısında böyük hörmət və ehtiram hissi ilə duyğulanan: **Azadə Novruzovadan...**